Azərbaycan.- 2021.- 21 aprel. S. 3.

# Müasir texnologiyalar üzərində inkişaf dövlət başçısının aqrar siyasətinin mərkəzində duran məsələlərdən biridir





Aprelin 20-də Hacıqabul rayonunda "Agro Dairy" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqroparkının təqdimatı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qeyd edək ki, kənd təsərrüfatının ən müasir texnologiyalar və elmi əsaslar üzərində inkişafı dövlət başçısının aqrar siyasətinin mərkəzində duran məsələlərdən biridir. Aqroparkların yaradılması və fəaliyyəti məhz bu prinsiplərlə həyata keçirilir.

Prezident İlham Əliyevə məlumat verildi ki, "Agro Dairy" MMC regionlarda kənd təsərrüfatı infrastrukturunun yaxşılaşdırılması, müasir texnika və innovasiyaların tətbiqi ilə yüksək məhsuldarlığa malik keyfiyyətli məhsul əldə etmək məqsədilə layihələr həyata keçirir. Onlardan Samux rayonunun Qaraağaclı kəndi ərazisində ümumi sahəsi 2698 hektar, Tovuz rayonunun Ceyrançöl ərazisində 7000 hektar və Padarçöl (Hacıqabul, Şamaxı) ərazisində 5000 hektar olan sahələrdə intensiv bitkiçilik təsərrüfatı yaradılıb, yeni ərazilər əkin dövriyyəsinə cəlb edilib.

**"Agro Dairy" MMC-nin nümayəndəsi:** Sizin tapşırığınıza əsasən keçən ildən Samuxda biz təcrübəmizi digərləri ilə bölüşürük.

**Prezident İlham Əliyev:** Bəli, mən demişdim ki, bu təcrübəni başqa təsərrüfatlara da ötürün. Edirsiniz onu?

**"Agro Dairy" MMC-nin nümayəndəsi:** Bəli, cənab Prezident, edirik. Keçən ilin oktyabrında biz Hacıqabulda təlim mərkəzi tikdik və payız əkinindən əvvəl fermerləri dəvət etdik, özümüz onları gətirdik və onlara təlim keçdik. Hazırda yazlıq əkinlərinin başlanması ilə əlaqədar biz təlimləri yenidən təşkil etmişik.

"Agro Dairy" MMC-nin Aqronomlar Şurasının rəhbəri Kristof Hartiq işğaldan azad edilmiş Ağdam və Füzulidə olduqlarını bildirdi, bu rayonların torpağının münbit olduğunu qeyd etdi. Dedi ki, lakin ermənilər torpağı pis vəziyyətə salıblar. Orada torpağın vəziyyətini yaxşılaşdırmaq üçün müəyyən işlər görülməlidir.

Qeyd edək ki, aqroparkda növbəli əkin sistemi, intensiv aqrotexnologiyalar tətbiq edilir, təkrar əkin həyata keçirilir. Nəticədə ildə iki dəfə yüksəkkeyfiyyətli məhsul almaq mümkün olur. İqtisadiyyat Nazirliyi tərəfindən "Agro Dairy" MMC-yə taxıl və yem bitkilərinin istehsalı layihəsi üzrə investisiya təşviqi sənədi verilib. Bu sənədlə MMC 23,4 milyon manat məbləğində ƏDV-dən və gömrük rüsumlarından azad edilib.

Müəssisə, həmçinin toxumçuluqla məşğul olur və bu sahədə fəaliyyətini "seleksiyaçı-toxumçu-əmtəəlik məhsul istehsalçısı" prinsipinə əsaslanaraq həyata keçirir. Toxum emalında yeniliklərə gəldikdə isə, "Plug & Play" texnologiyasının ölkəmizdə tətbiqinə başlayıb. Layihələrin uğurlu icrası ilə toxum idxalından asılılığının azalacağı gözlənilir.